

* * *

İlk məhəbbət dedim, budur son andım.
Kölgətək arxanca gəzib dolandım,
Nə sən xəbər tutdun, nə mən söylədim,
Alovsuz, tüstüsüz oduna yandım.

MƏHƏBBƏTİN ALOVU

(*Mahnı. Musiqisi Xəyyam Mirzəzadənindir*)

Dindirirəm dinməyirsən,
Bir kəlmə də danışmırsan.
Su tökürəm sönməyirsən,
Od vururam alışmırsan.

İçin-için yanan ocaq
Alovlansın gərək bir gün.
Qönçələyir hər il budaq
Təzə güllər açmaq üçün.

Sən deyirsən bu sevdadan
Düşməsin bir kimsə duyuq...
Mən deyirəm sevən insan
Ötüb keçməz soyuq-soyuq.

Əhdimizi biz dansaq da,
Küsülütək dolansaq da,
Gizli saxlar könül çətin
Alovunu məhəbbətin.

İNSAN – ALOV

Səni gördüm...
görməmişdim binadan
şaqraq-şaqraq söz danışan alovu.
Səni gördüm...
görməmişdim bircə an
sükut içrə qəfil coşan alovu.

Görməmişdim arzuları gül edən,
görməmişdim murazları kül edən
gah ağıllı, gah da çaşan alovu.
Səni gördüm...
Heyrət etdim bəşərə –
Necə olub od salmayıb şəhərə
baxışının çaytək daşan alovu.

Heyrət etdim – nə əcəb sən keçdikcə
çatır-çatır alışmayıb bağ, küçə?!
Səni gördüm...
Gördüm aman, gördüm mən
ətrafına qor çiləyib su səpən
möcüzəni –
insanlaşan alovu.

HƏSRƏTLİYƏM

Bir ağır yük daşıyıram,
Möhnətliyəm, möhnətliyəm.
Sənlə sənsiz yaşayıram,
Həsrətliyəm, həsrətliyəm.

Yenə yağır tənə daşı,
Hədəf olur bağrım başı.
Haçan görsəm o göz-qaşı
Heyrətliyəm, heyrətliyəm.

Ağladırsan gildir-gildir,
Bircə yol da güldür-güldür!
Özün söylət, özün dindir,
Söhbətliyəm, söhbətliyəm.

Ürək çəkən intizarı
Çəkə bilməz yük qatarı.
Qismətimdir eşqin varı –
Sərvətliyəm, sərvətliyəm.

Qəm əlindən qəlbim diltəng,
Qapınızda dursa pələng
Gələsiyəm, qoca filtək –
Cürətliyəm, cürətliyəm.

BİLƏYDİ KAŞ...

Dedi: "Gəllərm, gözlə məni",
Gələydi kaş, gələydi kaş.
Aradakı gözləməni
Siləydi kaş, siləydi kaş.

Onsuz ürək olmur aram,
Onsuz havam-suyum haram.
Onsuz necə darıxıram
Biləydi kaş, biləydi kaş.

Gözləməkdən gəldim cana,
Alovlana-alovlana
Mətləbimi decək ona
Güləydi kaş, güləydi kaş.

Günah, nöqsan sevəndəmi?
Çəkilməzdir sevda qəmi.
Rədd cavabı alan kimi
Öləydim kaş, öləydim kaş...

"OLMAZ, OLMAZ!" DEYİRSƏN

(Mahnı. Musiqisi Zöhrab Abdullayevindir)

Sahil sakit... çəkilibdir ayaqlar,
Coşan dalğa qayaları qucaqlar.
Deyəndə ki, gəl qayıqla üzək, yar,
Çatıb qara qaşlarını nədən sən:
– Olmaz, olmaz! – deyirsən.

Ay ucalır... gecə olur tən yarı,
Əynin nazik, əsir dəniz rüzgarı,
Üşüyürsən, bir yaxına gəl barı,
Qəzəbdənmi alovdan don geyirsən:
– Olmaz, olmaz! – deyirsən.

Sübh şəfəqə boyayanda aləmi,
Töküləndə çiçəklərin şəbnəmi,
Deyəndə ki, çatdı ayrılıq dəmi,
Buraxmayıb əllərimi nədən sən:
– Olmaz, olmaz! – deyirsən.

EŞQİMİN NÖVRAĞI

(*Mahnı. Musiqisi Hacıbaba Hüseynovundur*)

Könlüm düşdü diyar-diyar
Bir kəkliyin sorağına,
Ha yalvardım, o qonmadı
Məhəbbətin budağına.

Meyl etmədim bir gözələ,
Sədaqətim düşdü dilə.
Mən and içdim ildən-ilə
İlk eşqimin növrağına.

Bir gün yenə onu gördüm,
Dilə gəldi həmin dərdim.
Bir dəstə gül-çiçək verdim,
O, almadı qucağına.

Əllərimdə gülüm soldu,
Riqqətimdən gözüm doldu.
Sinəm başı hədəf oldu
O dilbərin bu dağına.

Sanma könül sınasıdır,
Kərəm olub yanasıdır.
O, körpəmin anasıdır,
Vurulmuşam bu çağına.

QONŞU OLMAQ İSTƏMİRƏM

(*Mahnı. Musiqisi Telman Hacıyevindir*)

Axşam... tarla yolu... bir qız, bir oğlan;
Sarmış hər birini yenə həyəcan...
– Firəngiz, ver kətmənini götürüm.
– Sağ ol!
– Səni evinizə ötürüm?
– Bu nə sözdür, qapıbir ki, qonşuyuq?!
– Olarmı bəs qonşu bu qədər soyuq?
Qız düşünüb gedir dərin xəyala,
Cavab gəzir qəlbindəki suala...
Oğlan duyur, alovuyla yandığı
Məhəbbəti söyləməyin çağıdır.
Gözlərində eşqi gülən o qızın
Axşam yeli saçlarını dağıdır.
Oğlan isə yığışdırıb özünü,
Söyləyir bir mahnı kimi sözünü:

Oğlan:

Qonşuluğun hər cövrünə dayandıq,
Bir sevindik, arzumuzu bir andıq.
Biz həmişə şad, mehriban dolandıq.
Açıq deyim, daha bu ildən belə
Qonşu olmaq istəmirəm sənlə!

Qız:

Sən çaşdırdın, oğlan, mənim fikrimi,
Ən yaxın bir qohum kimi, dost kimi,
Kənd bilir ki, biz olmuşuq səmimi,
Hardan əsdi indi soyuq bir külək?
Utanma, aç sən bu sirri də görək!

Oğlan:

Nə zaman ki, baxışımız öpüşür,
Ürəyimə alov düşür, od düşür.
Ömrümüz şən, günlər tez-tez ötüşür.
Bir arzum var, coşub gəlir o dilə:
"Qonşu olmaq istəmirəm sənlə".

Qız:

Batan günəş bax gör necə saralır,
Axşam düşür, ağ tarlalar qaralır.
Gəl tələsək, vaxtımız da daralır...
Atalardan qalma belə məsəl var:
"Qonşun pisdir, birdəfəlik köç qurtar!"

Oğlan:

Yox başımda köçüb getmək havası,
Məhəbbətsiz varmı ömrün səfası?
Müxtəsəri, budur sözün qısası:
Köç bizə gəl, quraq təzə ailə,
Qonşu olmaq istəmirəm sənlə!

CAVABINDAN QORXURAM

Səhər-axşam biz işə,
Evə qoşa gedirik.
Qaça-qaça yanaşı
Avtobusa yetirik.

Addımının ahəngi –
Ürəyimin vurğusu.
Bu doğmalıq nədəndir?
Heç bilmirəm doğrusu.

Nə adını bilirəm,
Nə əslinə bələdəm,
Yuxuda da dalınca
Gəzirəm qədəm-qədəm.

Nəfəsinin ətrini
Dağ yelitək uduram,
Əsə-əsə gizlicə
Hörüyündən tuturam.

Sən yanımda olanda
Qırpılmayır gözlərim.
Alışdırır dilimi
Deyiləsi sözlərim.

Baxışında süzürəm
Cilvələnən aləmi.
Rəssam olmasam da mən
Götürürəm qələmi.

Əllərimi tənəylə
Titrətməsə baxışın,
Yarananda, hiddətlə
Oynamasa göz-qaşın,

O qənirsiz şəklini
Mən əzbərdən çəkərəm –
Seyr etmişəm çöhrəndə
Hər cizgini yüz kərə.

Sənsə bir yol duymadın
Gözümdəki eyhamı.
Tanımadın mən adda,
Mən sanda bir adamı.

Hansı sözlə deyilsin
Bəs bu dərdim, həsrətim –
Damladakı güneştək
Aşkar olsun halətim?

Gərək "sevirəm..." sözü
Bu məqamda nur saça,
Bu müqəddəs kəlam da
Ucuzlaşıb yamanca.

Azalıbdır əsəri,
Qalmayıbdır kəsəri.
"Sevirəm"in mənası
Zarafata dönübdür,
Hərarəti, atəşi
Busələrdə sönübdür.

Hansı sözlə deyilsin
Bəs bu dərdim, həsrətim,
Damladakı güneştək
Aşkar olsun halətim?

Təkrar-təkrar deyərdim:
"Sən varsansa, mən varam!
Sənsiz heçəm, mən heçəm,
Nə günüm var, nə gecəm..." –
Deyərdim bu sözləri,
Cavabından... qorxuram!

NİYƏ BELƏ ŞİRİNSƏN?

(*Zarafatyana*)

Mən sevmərəm quraqlığı heç zaman,
Yanar çünki susuzluqdan bağ-bostan,
Belə aşkar bir həqiqət var ancaq:
Yay fəslində göy yarpağı solan tağ
Görməyibsə əgər bollu yağış, su
Şirin olar gətirdiyi hər yemiş.
Yaxud üzüm üzüb yesən, doğrusu,
Bilmozson ki, bu üzümdür, ya kişmiş.
Bala dönər susuz dəyən ilk nübar
Başqa sirrə axtarıram mən açar.
Burda məqsəd nə tağdır, bil, nə tonok.
Şuşalı qız, sirri özün de bilək,
Nədən baldan şirin olur sözlərin,
Nədən xumar-xumar baxan gözlərin
Qara üzüm giləsitək qaralmış,
Baxışın da, elə bil ki, od almış?
Vaqif demiş, ixtilatın qənd-şəkər,
Bir quraqlıq meyvəsisən, müxtəsər.
Şuşada su az tapılır, bəlkə sən
Ona görə bu qədər çox şirinsən.

GİZLİ SEVGİ

Bəzən saatlarla mən düşüncəyə dalıram,
Uzaqlara həsrətlə baxa-baxa qalıram.

Onun günəş camalı xəyalımla öpüşür,
Gizli eşqin çağları bir-bir yadıma düşür.

Bir bahar əyyamıydı, açmışdı lalə, nərgiz,
Meşədə, dar cığırda birdən qabaqlaşdıq biz...

Nəfəsimə toxundu onun ətir nəfəsi,
Qanadlandı uçmağa gənclik eşqi, həvəsi.

"Yol ver keçim!" deyincə xumarlandı gözləri,
Mən çəkildim, yox oldu bir anda o şux pəri.

Bu görüş nəzərimdə bir qəribə hal oldu,
O, röyatək itincə nəşələr məlal oldu.

Sonra açа bilmədim ürəyimi mən ona,
Mən dumduru göl oldum, o uzaq uçan sona.

Gedən zaman qürbətə o, yolda durmuş idi,
Bənövşətək nədənsə boynunu burmuş idi.

Gizli qaldı onun da ürəyinin sirləri,
Görəsən heç anıbmı məni o gündən bəri?

Yox, bəlkə də bilməyir, söhbət açmadıq ki, biz,
Mən o qızı sevmişəm özündən də xəbərsiz.

Bəzən saatlarca hey düşüncəyə dalıram,
Uzaqlara həsrətlə baxa-baxa qalıram.

Onun günəş camalı xəyalımla öpüşür,
Gizli eşqin çağları bir-bir yadıma düşür...

BİR SEVGİNİN MEYVƏSİ

İki cavan ilk dəfə dayansa da üz-üzə
Köhnə, əziz tanışdı baxışları elə bil.
Ürəklərin şövqünü paylayırdı göz-gözə,
Sehrli bir heyrətlə sükutdaydı dodaq, dil.

Abşeronda süslənib qönçələnən o qızın
Gözü qara şanıtək, söz-söhbəti şirindi.
Oğlan isə göz açmış o tayında Arazın.
Titrək qəlbi alovlu, cod əlləri sərindi.

Görüşdülər neçə yol... danışdılar, güldülər,
Birgə başa vurdular fəsilləri, illəri.
Bir-birinin soyunu doğma, yaxın bildilər,
Dindi şirin nəğməylə sədaqətin telləri.

Yollar parka, kinoya aparanda onları
Hər addımda, hər izdə sanki bir gül bitirdi.
Bu tükənməz, ətirli məhəbbətin yolları
Sevənləri, nəhayət, toy evinə gətirdi...

Gəldi qohum-əqrəba, uzaq-yaxın qonaqlar,
Bir məclisə yığıldı oğlan evi, qız evi.
İşıq saldı qəlblərə, güldü üzə otaqlar,
Bu mehriban ocağı hamı bildi öz evi.

Oğlan tərəf, qız tərəf şaxələnmiş budaqdı –
Meyvəsidir Təbrizin, Qarabağın, Qubanın.
Burda ürəklər yaxın, demə mənzil uzaqdır –
Hər sağlıqda səsi var neçə elin, obanın!

Övladını göndərib bura neçə kənd, şəhər.
Elə bil ki, bərədən Araz daşır, Kür daşır.
Bu məclisdə, bu toyda, desəm azdı yüz nəfər
Bir-biriylə ilk dəfə qohum olur, dostlaşır.

Neçə mahal qovuşur... Neçə uzaq ev, külfət...
Xəyal bizə dağları, üfüqləri aşdırır.
Saf baxışdan od alan bir sədaqət, bir ülfət
Xalqı mehriban edir, xalqı yaxınlaşdırır.

QOŞA ÇAYLAR KİMİ

Çay var suyu ilıq, çay var ki, sərin,
Çay var lap dayazdır, çay var ki, dərin.
Çay var bəzən coşur, bəzən lal axır,
Çay var ki, hünəri dağları yıxır.

Dağ-daşa hay salan qoşa çay da var,
Qovuşub gedərlər düzdə mehriban.
Bir azdan yenə də ayrılar onlar
Qayaya, təpəyə rast gələn zaman.

Səhra uda-uda hər qətrəsini
Baş alıb yollanar hərə bir yana.
Qumlar dalğalanıb örtər izini,
Ömrü belə vurar o çaylar sona...

Qoşa çaylar da var, qovuşdularını,
Dəyişməzlər daha yataqlarını.
Kükrəyib coşdular, ya daşdılarını,
Ayırarlar təzə budaqlarını.

Onlar da birləşər, axıb qovuşar,
Ümmanın ömrünə qatar ömrünü.
Quruyub yox olmaq dərdi sovuşar,
Sərin meh nəfəstək tutar üstünü.

İnsanın ömrü də bənzəyir çaya,
Fərəhlə çağlayır qoşa axanda.
Bir cüt qanad olub qalxır ucaya
Hər dərdi, möhnəti birgə yıxanda.

Ömrün yollarını qoşa keçəndə
İtirməz izləri zamanın yeli.
Bir halal süd əmmiş həmdəm seçəndə
Nəsillər bürüyər obanı, eli.

İlk eşqin qabarıb coşan dalğası
Dalğadan üzülüb dalda qalmasın.
Keşməkeşli yollar, həyat qovğası
Sevəni sevəndən ayrı salmasın.

Olsunlar həmişə könül həmdəmi,
Qoşa yetişsinlər hər səadətə.
Kür, Araz Xəzərə qovuşan kimi
Birgə qovuşsunlar əbədiyyətə...

GÖZLƏR VƏ ÜRƏKLƏR

Bir qoca kişi qoca qadınla
Sahil yolunda gəldi üz-üzə.
Onlar bir anlıq ötən zamanla,
İtən ömürlə durdu göz-gözə.

Dindi baxışlar, dindi ürəklər,
Keçən illəri bir də andılar.
Çoxdan əsmişdi soyuq küləklər,
Sönmüş atəşlə bir də yandılar.

Kişinin gözü axtardı, gəzdi –
Oğlanın özü axtardı gəzdi
O incə qızı, qəşəng sifəti.
Solan gözəllik qəlbini əzdi,
Tapa bilmədi o təravəti.

Dedi: "eyibsiz bilirdim onu,
Haqlayıb daha baharını qış.
Həyatın necə sərtdi qanunu –
Gözəl də dönüb çirkin olarmış..."

Qadının gözü, baxışında qəm
Qəşəng oğlanı gəzdi, aradı:
"Hanı o vüqar, hanı o görkəm?!
Qanı da görün necə qaradı –

Neyləsin yazıq, əyilib beli,
Tökülüb saçı – nə günə qalıb?!
Titrəyir dizi, titrəyir əli,
Ah, cavan pələng nə tez qocalıb?

Eyibsiz oğlan bilirdim onu,
Haqlayıb daha baharını qış.
Həyatın necə sortdi qanunu –
İgid də dönüb gücsüz olarmış..."

Axışdı anlar,
Axışdı anlar...
Baxışdı onlar,
Baxışdı onlar...

Saç da ağappaq,
Üz də qırışdı.
Ürək, göz ancaq
Qocalmamışdı...

SÖYÜDLƏR HIÇQIRIR

Açıb-bükür sahili gah xəzri, gah gilavar.
Onun iki romanı –
iki seyrangahı var.

Birisində al-əlvan fəvvarələr fışqırır,
O birində söyüdlər için-için hıçqırır.
Atılır ki, düşür ki, çırpınır ki, ləpələr
Hər ildə bir iz qoyan ayaqları öpələr...

Birisində gənclərin, cavanların yığnağı,
Qızarıbdır küləkdən gözəllərin yanağı,
Kimi qoşa əyləşib verib burda baş-başa
Gözvuran mayaklara eləyirlər tamaşa.
Kimisi də qayıqla dalğalarla yarışır,
Mahnıları suların mahnısına qarışır.

O birində küləyin atı çapmır dördnala,
Dövran sürmüş qocalar gedir burda xəyala:
Cavanlıqda dalğalar mehribandı, əzizdi,
Külək də sərt deyildi, kar etməzdi onlara...
Bir səs gəldi: "Düşün, dost, dəniz həmin dənizdir,
Fəqət ömrün qışından yol qayıtmır bahara.
Sən bu yolu göylərdə, sularda çox gəzmisən,
Cığırlara, rizlərə çox qəndillər düzmüsən,

Nəfəsinlə əriyib dağ başında bulud, qar.
Övladına yol verir sən saldığın o yollar.
İndi qabaq seyrangah onlarındır, onların,
Sən onlarda tapmısan mənasını baharın...
Nə etməli, vaxt çatıb –
Qol da, baş da keyləşir..."
Onlar külək tutmayan dalda yerdə əyləşir.

Nədəndirsə bu zaman öz halına heç biri
Əsla məhəl qoymayır.
Qəhqəhəli – dalğalı seyrangahdan gözləri
Doymayır ki, doymayır.

Düşünürlər: "Bir anlıq
Qayıdaydı cavanlıq..."

Bu arzu, bu diləklə
Gəlir onlar sahilə.
Öz yerini tanıyır əlvan kürsüdə hərə,
Müddətsiz bilet alıb, elə bil ki, o yerə.
Günün məlum çağında
Gözəl sahil bağında

Görüşürlər mehriban,
Axşam-səhər mehriban.

Başa vurur günləri onlar nəfəs-nəfəsə,
Narahatlıq başlayır biri azca geciksə:
"Yoxsa o da..." –
Çaxnaşır sual dolu baxışlar.
Ondan soraq verməsə nə əsən meh, nə rüzgar.
Boş qalan yer darıxır...
Sahibini hey gəzir.
Suda gəmi,
Göydə Ay,
yerdə qəndil müntəzir.
Açıb-bükür sahili gah xəzri, gah gilavar.

Onun iki romanı –
İki seyrangahı var.
Birisində al-əlvan fəvvarələr fışqırır,
O birində söyüdlər için-için hıçqırır...
Atılır ki, düşür ki, çırpınır ki, ləpələr
Hər ildə bir iz qoyan ayaqları öpələr...

KÖÇƏRİ QUŞ

İsti karıxdırdı, çıxdıq şəhərdən,
Ucqar dağ kəndində tapdıq əlacı.
Boğulhaboğulda bürküdən, tərdən
Bizi yelpiklədi bir qoz ağacı.

Qaçdım ora-bura görməmiş təki,
Bostana, bağçaya təpdim özümü.
Dedim sərinləyim bir anlıq səki,
Sal-sal buzlu suda yudum üzümü.

Rastlaşdım bir qızla çay qırağında,
Məni mənliyimdən o, saldı iraq.
Əqlə ram olmayan dəli çağımda
Qəlbimdə gizləndi məndən qaçaraq.

Yaxınlıq verəndə çalıquşutək
Tutmaq istəyirdim, itkin düşürdü.
Çıxıb əl edirdi sonra gülərək
Bilməzdin pəriydi, yoxsa bəşərdi...

Vədə çatdı; köçdük evli-eşikli,
Əllərim o səmtə uzalı qaldı.
İllər on-on keçdi, qəlbimdə şəkli,
Şəkərli ədası, xəyalı qaldı.

Yenə yada salıb həmin diyarı
Nəvəmlə üz tutdum o dağ kəndinə,
Corab toxuyurdu gördüm bir qarı,
Suyu şirin gəldi, xoş gəldi mənə.

Həmin qoz ağacı, o çay, o sahil,
Bir daş da yerindən tərpənməmişdi.
Ürəyim qəfildən qopdu elə bil,
Görən sehirmidir, yoxsa nə işdir?

Qırx il bundan əvvəl gördüyüm pəri
Donunu çirməyib çapırdı suda.
Bizi görən təki yüyürdü bəri,
Yoxuşda şivlərdən o, tuta-tuta.

Əlləri moruqdan xınalı idi...
Mənim oğul nəvəm qalxdı şövq ilə.
Əyilib qız nəsə qarıya dedi.
Başını tərpətdi o, gülə-gülə.

Titrədi butaykən soluxan arzum...
Qız bir də soruşdu baxıb nəvəmə.
"Köçəri quşdular... bənd olma, quzum..." –
Məni tanıyıbmış qarı sən demə.

BURDADIR

Qarabağ! Durnalı – ceyranlı çöllər,
Qarabağ! Bülbüllü – qumrulu dillər,
Qarabağ! Gözütox – sərvətli ellər,
Gücüm-arxam mənim, kürəyim mənim.

Ehtiyac bilmirəm əslimi danam –
Məni özgə kənddə doğubdur anam.
Uzaq bir mahaldan – Zəngəzurdanam,
Lakin burda gülüb taleyim mənim.

Mizrab toxunmamış kövrək bir teləm,
Bir ev, bir nəsil yox, bütöv bir eləm,
Əhləti unudan nankor deyiləm –
Çıxıb bu torpaqdan çörəyim mənim.

Kasıblığın cövrü burda azalıb,
İlk əmək kitabçam burda yazılıb,
Atamın məzarı burda qazılıb –
Burdadır, burdadır ürəyim mənim.

Burdadır uşaqlıq, cavanlıq çağım,
Bir həya toplanan dəli yığnağım,
Qarda dovşan, bəzgək vuran çomağım...
Bu yerdə bərkiyib biləyim mənim.

Çoban itlərinə gələrdim hədə,
Gözlərim qalardı köçən Təhlədə...
Adamdan qaçmazdı turac məhlədə,
Doluydu dən ilə ətəyim mənim.

Tutun nübarını burda yemişəm,
Kövərlərdə gəzmək olubdu peşəm,
Neçə qız söz atıb... Gülüb demişəm:
"Ələnib xəlbirim, ələyim mənim".

Qonşu qız gül yığıb bir-bir yoxladı,
Kəsib təmizləyib topa bağladı.
"Yarpaqsız yoxsuldur" – dedim, ağladı,
Təzələndi şövqüm – istəyim mənim.

Çəpiştək çəpəri aşdı bir anda...
Cavanlar, beləydi məhəbbət onda!
İllərlə qaynadı qanı qanımda,
Hosrətdən kosildi kələyim mənim.

İndi o boğçanı tökə bilmirəm,
Ərlidir, adını çəkə bilmirəm,
Qurulu körpünü sökə bilmirəm,
Onsuz da heç olub ilk səyim mənim.

Bəlkə özünün də yoxdu xəbəri –
Halı etmədim ki, mən o dilbəri,
Yetdim çox arzuya o vaxtdan bəri,
Çatışmır görəsən bəs nəyim mənim?

Yad kimi baxmasın bizə təzələr,
Təki xoşbəxt olub dərdsiz gəzələr,
Keçdikləri yola çələng düzələr,
Budur arzum mənim, diləyim mənim!

ARTIQ ADAM

Bu gün bir şəhirlə durdum üz-üzə –
Qönçəsi çırtlayan adi çiçəkdi.
Çatmış olsaydı da ömrüm lap yüzə
Onu danışdırıb dindirəcəkdim.

Möcüzə əsrinin möcüzəsitək
Zühur eyləmişdi ilk məhəbbətim.
O vaxt anasından yediyim kötək –
Bu gün dadlı, şirin çubuq konfetim.

Odumu?! Başıma havamı gəlib –
Görün nə günlərə qaldı axırım?!
Halımı, tövrümü o, fəna bilib
Dedi: – Əmi, bəlkə həkim çağırım?

– Heç kəs lazım deyil, qulaq as mənə,
Əyləş, qoy danışım bir nağıl sənə:

"Bir oğlan var idi, bir qız var idi...
Birisi sən idin... o biri indi
Bilmirəm, bilmirəm harada qalıb?
Ömrümdən ayrılıb yarıda qalıb.

Mənim ceyran qovan o cavanlığım –
Sənin həmyaşın,
Sənin sirdaşın –
Onun gözlərilə qoy sənə baxım.

Tutub əllərindən gəncliyimi kaş,
Gətirib sənինlə tanış edəydim.
Artıq adam kimi özümsə birbaş
Sizi ikilikdə qoyub gedəydim..."

GÖZÜMÜZÜN QABAĞINDA

Gözümüzün qabağında
yarpaqlayır budaqlar,
çiçəkləyir budaqlar.

Gözümüzün qabağında
uşaqlığa həmişəlik
vida edir uşaqlar.

Oğlanların bığ yerindən
puçur-puçur tər axır.
Ürəyini onların
otaq sıxır, ev sıxır...
Köynəkləri qabarır
gündən-günə qızların
atəşli nar qönçəsitək,
butasıtək baharın.

Düyməsinə çırtma dəysə,
əl toxunsa, o saat
pardaxlanıb açılar,
məstedici, bihuşdarı
rayihələr saçılar.
Bir məhlədə, bir həyətdə
axşamacan "evcik-evcik",
"siçan-pişik" oynayan,
gah qol-boyun, gah əl-ələ
halay gələn,
deyib-gülən
qız-oğlan
bu gün şirin duyğularla
bir-birindən ayrılır,
hissin, fikrin ümmanında
öz-özüylə tək qalır.

Qoşalardan biri dünən
oynayırdı "gizlənpaç" –
qaranlıqda tapışdılar.

Bir hiss dedi qıza:
– Qaç!
Oğlanlardan uzaq dolan,
indən belə kənar gəz!
Yoxsa səni alovunda
yandıracaq o nəfəs...

Başqa dəstə çağırırdı:
" – Bənövşəyəm, bənövşə!

– Bizdən sizə kim düşə!
– Nərgiz! Nərgiz! Ancaq Nərgiz!"

Qız qızardı: "Dəlidir bu,
salır məni dilə-dişə?
Xoruz kimi hey banlayır,
qalınlaşan səsinə bax..."

Gülüşdülər.
Qız ayrılıb
evə qaçdı ağlayaraq...
Gözümüzün qabağında
ayrılırlar,
ayrılırlar –
bir-birinə yazıq-yazıq,
həsrət-həsrət baxa-baxa.
Ayrılırlar, ilk vüsala
həmişəlik qovuşmağa.

TELEFONDA SÖHBƏT

Telefon dəstəyini götürdü oğlan,
Nömrəni yığdıqca əlləri əsdi.
Qızın anasından qorxurdu yaman,
Səsini eşidib aranı kəsdi...
Onu təntitmişdi dünənki söhbət:

– Əziyyət olsa da sizə, ay xala,
Deyin, telefona gəlsin Məlahət...
– Sən kimsən, nəçisən, axı, ay bala?
– Bir allah bəndəsi... tanımazsınız...
– Eləysə xoş getdin!
– Rica edirəm...
– Evdə yoxdu qız!
– Xalacan...

Titrədi oğlanın səsi.
Od tutub alışdı ana nəfəsi,
Çevrilib qızına hiddətlə baxdı,
Hirsləndi dəstəkdə çəkilən aha,
Elə bil otaqda bir şimşək çaxdı:
– Zəng çalma buraya, – dedi, – bir daha!

"Zəng çalma!" Bəs niyə yenə o cavan
Yığdı qorxa-qorxa tanış nömrəni?
Düşündü: "Eyb etməz, gələr bir zaman
Yaxından tanıyıb əzizlər məni;
Cavabı belə də olaydı gərək,
Axı, o neyləsin anadır, ana.
Kaş onun qızı da bir gün özütək
Belə göz olaydı öz övladına".

GÖRÜŞ YERİ

Sahil bağı, qəndil altı – şirin gözləncək,
Görüş yeridir.
Gəzir saat əqrəbləri qarda kösövtək,
Ömrü əridir.

Yox, qaytarır itən günü, səadəti də
Yetişən anlar,
İsindirir iqlimi də, təbiəti də
Odlu intizar.

Varmı elə şirin duyğu ilk məhəbbətin
İlk vüsalından?
Bu ətrafda ətirlidir hər dönge, hər tin
Qız dəsmalından.

Yolum düşür indi həmin görüş yerindən,
Hanı... o çağım?

İş yerinə tələsirəm, tələsirəm mən,
Getmir ayağım.
Nə duyğudur burda məni çəkib saxlayır,
Olmuram aram.
Xatirəmin aynasında bir qız ağlayır,
Mən ağlayıram.

Nahaq şübhə qəlbimizə suallar düzdü,
Silə bilmədik.
Baxışımız bir-birini həsrətlə süzdü,
– Ayrılaq! – dedik.
Barışmadı ulduzumuz... Qoydu bəxt bizi
Yamanca darda.
Nakam ölən cavan kimi ilk eşqimizi
Dəfn etdik burda.

Önümdəki quru yollar, nurlu diləklər
Zülmət göründü.
Əlimdəki rayihəli, şəhli çiçəklər
Əklilə döndü.

Görüş yeri məhəbbətə oldu məqbərə,
Başdaşı güldən.
Elə bil ki, bir qəhrəman sərildi yerə
Qəfil güllədən.

Qəfil güllə! Ey cavanlar, çəkilin yana,
Sizə dəyməsin!
Keşiyində həssas durun hey yana-yana
Eşqin, həvəsin.

Düşünərək, daşınaraq sevin dərindən,
Uğurlar sizə!
Qoy səadət ayaq açsın görüş yerindən
Evlərinizə!..

* * *

Xeyli vaxtdır görüşmürük,
Ayrılığa dözmürəm mən.
Elə bil ki, bir ağır yük
Asılıbdır ürəyimdən,
Ayrılığa dözmürəm mən.

Sən yuxuda olan zaman
Gizli-gizli mən yanmışam.
Oyaq qalıb sabahacan
Keşiyində dayanmışam,
Gizli-gizli mən yanmışam.

Yuxu necə gəlsin gözə,
Sən o yanda, mən bu yanda.
Ürək istər buna dözə
Radiomuz oxuyanda:
"Sən o yanda, mən bu yanda..."

* * *

Özünü ömrünün ilk baharında
Heç görüş yerinə çatdırmısanmı?
Bir ağac altında, çay kənarında
Sevdiyin oğlanla oturmusanmı?

Sən mənə versəydin bu sualları
Deyərdim qəlbimi qanatma barı.

PƏNAH GƏTİRMİŞƏM

Xırda bir uşaqdım mən görən zaman,
Eşqdən, sevdadan yoxdu xəbərin.
Baxırdı hər şeyə vurğuntək heyran
Məsum quzu kimi xumar gözlərin.

Bəzən rastlaşanda nəzərlərimiz
Utanıb qaçırdın, yadında varmı?
Uşaqdıq, yox idi dərdi-sərimiz,
O günlər geriyə heç qayıdarmı?

O şirin çağlardan neçə il keçir,
Ömür öz atını çapır dördnala.
Söylə, o günləri yad eləyib bir
Barı getmisənmi sən də xəyala?

Qaynar gözlərini gördüm yenidən,
İndi başqa məna duyuram onda...
O odlu baxışlar özüm bilmədən
Qalamış könlümü görünməz oda.

Açmasam sinəmi yandırar bu ah,
Bir ürək sözüm var – çırpma daşlara,
Sizə bu qış çağı gətirdim pənah,
Çatdır öz əlinlə məni bahara!

QƏLBİMƏ AXDI

Gəl, o ala gözlərinə mən olum fəda,
Söylə, hardan *yaranmışdır* səndə bu qayda,
Deyirsən ki: "İnanmıram sənin sevginə –
Məhəbbətdən söz açmayır baxışın mənə.

Heç ayrılıq vaxtında da ağlamadın bir,
Göz yaşı ki, sevənlərə çətin deyildir!"

Burax, gülüm, şübhələri, sözümə bir bax,
Eyib deyil qız yanında məyər ağlamaq?!

O zaman ki, yol üstündə vidalaşdıq biz,
Parçalandı iki yerə bütöv qəlbimiz.
O zaman ki, ala gözlər dolandı... baxdı...
Göz yaşlarım üzə deyil, qəlbimə axdı.

İSMƏT

İsmət – qız üzünün zövqü, bəzəyi,
Gəlinin müqəddəs çarpan ürəyi,

Səmimi insana səmimi xitab,
Layiqli suala layiqli cavab.

Geyimlər, yerişlər, sözlər ədəbli,
Baxışlar ədəbli, gözlər ədəbli.

Kirpiyin yanağa düşən kölgəsi,
Duru göz yaşıyla yuyulan sima,
Buluda bürünən Ayın haləsi,
İncə bir meh ilə açılan səma.

Asta zümzüməli – sevdalı bulaq,
"Sevirəm" sözüylə səyriyən dodaq.
Gəlinin təmkinli, ciddi baxışı,
Qızın atmacaya çatılan qaşı.

Möhtəris gözlərə sədd çəkən divar,
Qadının hüsnündə solmayan bahar...

İsmət – düz ilqardır, ismət – saf dilək
İsmət – təzə eşqin qəndi-nabatı.

İsmət – nənələrin qədim sovqatı,
Əziz saxlayasan sovqatı gərək!

VƏFA

Ay qız, çiçəyisən bizim dağların,
Hüsnünün şöhrəti tutmuş hər yanı.
Laləni qızartmış al yanaqların,
Gözlərin mat qoymuş bala ceyranı.

Səni bu gözəllik ucaltsın deyə,
Gözlə namusunu, gözlə arını –
Ömrü əyləncəyə etmə hədiyyə,
Əziz tut nənələr yadigarını.

Sən uca tutmasan öz ismətini,
Çoxları ətrini qoxlamaq istər;
Çalıb bir oğlanın ilk qismətini
Özündə xatirə saxlamaq istər.

"Qızsan, ucuz olma, bil öz qədrini" –
Deyən anaların səsini dinlə.
İndi elə tərpən, sabah ərini
Göstərməsin biri tənəylə, kinlə.

Ömrün mənasıdır vəfa, sədaqət,
Onsuz nə xoşbəxtlik, nə də həyat var.
Vaxtsız qəbrə gedər, başında töhmət
Əhdinə, eşqinə dönük çıxanlar.

Tərpənməz vəfadan qoyulan təməl,
Tufan dağları da yıxıb uçursa.
Vəfayla gül açar hər arzu, əməl,
Hansı ailədə o, yuva qursa.

SUAL

(*Zarafat*)

Bir dəstə ceyran olsa,
Gəlib çəmənə dolsa,
Mən onların içində –
Ceyranların içində
Səni itirmərəmmi?

Xəstə düşsəm biqərar,
Ürəyimdən keçsə nar,
Səndən icazəsiz, yar,
Dərman üçün, de, naçar
Qoynuna girmərəmmi?!

Dənizlər olsa ada,
Su tapmayıb dəryada,
Ölsə bütün balıqlar,
Belə quraqlıqda, yar,
Sən əkdiyin çiçəklər
Solub saralsa əgər,
Eşqin həyəcanıyla
Ürəyimin qanıyla
Onu bitirmərəmmi?

BOYALI DİLBƏR

Mən dağlar çiçəyi deyərdim sənə,
İndi sən olmusan boyalı dilbər.
Söylə, nə ad verim bu görkəminə,
Necə təsvir edim bu halı, dilbər?!

Təbiət qızını nəzmə çəkərdim,
Camalı dəyişsə qan-yaş tökərdim,
Yenə dağlar qədər çoxaldı dərdim,
Artdı ürəyimin məlalı, dilbər.

Mən səni şölədən parlaq sanardım,
Eşqinlə od tutub hər gün yanardım,
Müqəddəs arzuyla qanadlanardım,
Gözlərdim əbədi vüsalı, dilbər.

Hər elin öz dəbi, öz adəti var:
Ənlik, kirşan neylər lalə yanaqlar?!
"Qana" niyə batsın sədəf dırnaqlar?!
Cavabsız qoyma gəl sualı, dilbər!

Saçın zülmət idi, camalınsa gün,
Batan ulduz kimi, ay kimi söndün,
Yaşıl yarpaq idin, xəzana döndün,
Ey ötən sevgimin xəyalı, dilbər.

Meyvəsiz çiçəktək ömür bağında
Tez açıb solarsan cavan çağında,
Muzey əşyasısan öz otağında,
Neylərəm bu "cahi-cəlalı", dilbər!

İNİLTİ VƏ GÜLÜŞ

Dən düşsə də saçıma,
Qara damcı dammayıb
Ağ gülünə sevgimin.

Yetməsə də o kama,
Bir inilti qonmayıb
Şux dilinə sevgimin.

Sönüb getmiş, nahaqdan
Əhdi pozanda o qız,
Neçə nurlu diləyim.

Düşünmə ki, o vaxtdan
İniltisiz, qayğısız
Çırpınıbdır ürəyim –

Təlatümü dəryanın
Dərinlərdə çaxnaşar,
Yorulub əldən düşər.

Acığına qayanın
Üzdə ləpələr coşar,
Şaqqıldayıb gülüşər...

"SİRDAŞ" NƏDİR DEDİM...

Son günlər üzünü qəmli görəndə
Könlümə od salır bu halın sənin.
O qədər duyğusuz deyiləm mən də,
Sinəmi göynədir məlalın sənin.

Bəlkə qəlbindəki coşan məhəbbət
Bir zəif dalğaydı qabardı getdi.
O getdi, etmədi saf eşqə hörmət,
Mənim hər arzumu apardı getdi.

Bəlkə o ətirli səhər yeliydi,
Günəş boylananda sovuşdu artıq.
Bəlkə də vəfasız qaranquş idi,
Doğma yuvasından o uçdu artıq.

Dalğanı sahillər gözləyər müdam,
Səba həsrətini çəkər bənövşə.
Yuva qaranquşsuz tapmaz heç aram,
İntizar içində qalar həmişə.

Lakin eşqin camı çevrilən zaman
Boş qalar, bir daha, bir daha dolmaz.
Çünki hər xilqətdən ucadır insan,
Onun sevgisini alçaltmaq olmaz!

Sirdaş bilməsən də məni özünə,
Bir dost, bir yoldaştək qəlbimi dinlə!
Açaq hər mətləbi, deyək düzünə,
Söhbətim bitməmiş hələ sənlə.

"Sirdaş" nədir dedim, yadında varmı,
İlk dəfə açanda sənə qəlbimi.
Ürək dost önündə heç qapanarmı,
Aç, onu oxuyum bir kitab kimi.

NİŞANLI

Qonşuda bir qız var çalıb-çağıran,
O, təzə bir mahnı oxuyan zaman
Alardı başına səsi dünyanı,
Heyran eləyərdi onu duyanı.

Bu yanıqlı mahnı, bu coşğun səda...
Radionu bağlardıq o, oxuyanda.
Yatardıq, durardıq onun səsilə,
Biz də şənlənərdik qəhqəhəsilə.

Bu mahnı, bu gülüş kəsildi bir gün,
Hamı düşündü ki, görən nə üçün,
Nə üçün o susdu?
Şaqraq səsinə
Adət eləmişdi bütün qonşular.
Biri gülə-gülə söylədi mənə:
"O qızı bu gecə nişanlamışlar".

SƏHƏR-SƏHƏR

Şirincə qar yağır, otağım isti,
Sən də öz nurunu saç səhər-səhər.
Yata bilməmişəm, yatağım isti,
Yalqızam, qapımı aç səhər-səhər.

Nə ola, baş verə belə möcüzə,
Çevirə bilsən meylini bizə.
Qaymaqlı dodağa, şəkərli sözə
Qalmışam tamarzı – ac səhər-səhər.

Düşə mərhəmətə iradən əsir,
Bu tordan çıxmağa olmaya tədbir,
Eşqin fərmanına durub müntəzir
Verəsən hüsnündən bac səhər-səhər.

Hiddətli gözlərin oynayıb gülə,
Daşlar ətəyindən yerə tökülə,
Alınmaz qalalar bir-biri sökülə,
Yetişə taleyə tac səhər-səhər.

Qoyma tənhalıqda arzum uçuna,
Kəkliksən, şikar ol bir yol laçına.
Qarışsın ağ saçım qara saçına,
Sonra da öldürüb qaç səhər-səhər.

ƏBƏDİYYƏTİN BİR ANI

Dedi: "gələcəyəm vidalaşmağa..."
"Adam aldatmaq da, – dedim, – hünərmi?
Bir an dayanmadan qabaq-qabağa
Dərənin dibinə zirvə enərmi?!

Gözəllər gözündə unudulmuşam,
Nə vaxtdır yuvası cəh-cəhsiz quşam.
Bəxtimi sınaram yenə bu axşam,
Söz verib, sözündən, görək, dönərmi?.."

Mən bu xəyaldaykən qapı döyüldü,
Açdım, sarı donlu o xanım güldü!
Sarı qəndil idi, yox, sarı güldü!
Əslində – qəndilmi, gülmü... bəşərmi?

Dedim: a qismətim, a nurlu çiçək,
Yerişin, gülüşün, hər ədan qəşəng,
Naxışlı qədəmin-izin mübarək!
Şeşi qoşa edən talemi, zərmi?!

Gəldin – gəncliyimi gətirdin, sağ ol!
Əlçatmaz arzuma yetirdin, sağ ol!
Xətrimdə bənövşə bitirdin, sağ ol!
Eşqin rayihəli odu sönərmi?

Tezcə ayrılmaqdı, duydum, niyyətin,
Odumun üstünə od qoydu şərtin.
Məni məndən edən bu ünsiyyətin
Bilmirəm axırı xeyirmi, şərmi?

Sevda məqamında əbədiyyət var,
Onun hər anından nişanə qalar.
Taledən bir kəsim versən yadigar...
Heç belə bir bəxşiş ələ düşərmi?

Qənd yemiş qumrutək sən gülə-gülə
Dedin: "iştəhanı bir az az elə..."
Tale verdiyini belə gözələ
Görən özgəsinə bir də verərmi?

Getdin tələsərək, getdin qaçaraq,
Tənha çıraq kimi şölə saçaraq,
Yanınca bir xəyal... o mənəm ancaq!
Baxın, gedən təkmi... iki nəfərmi?!

SƏNİ SEVƏN QADIN

Səni sevən qadın, sən sevən qadın
Bütün qadınlardan səni qısqanır.
Elə zənn edir ki, çəkilcək adın
Şəhərin qızları od tutub yanır.

Elə zənn edir ki, sahilə çıxan,
Balkonda dayanıb küçəyə baxan
Gəlinlər dəlidir sənin dərdindən;
Mavi ekrandakı qadın xanəndə

Oxuyub, rəqs edib hərdən güləndə
Ürəyindən keçən sən olmusan, sən...

Sonra da söyləyir: "Fikir vermişəm,
Özün də deyilsən az aşın duzu.
Bir qadın üzünə irişsə, o dəm
Olursan önündə aciz bir quzu.
Səni bu halətdə çox görmüşəm, çox,
Özümü asmaqdan başqa çarəm yox..."

Pozulur büslbütün halı-övqatı,
İndi gəl həll elə bu müşkülatı.

Deyirsən: "ay balam, bu mənim yaşım,
Bu mənim tükləri seyrələn başım,
Mən kimə gərəyəm, kim mənə gərək,
Sən canın, bir toxta, sakit ol, görək..."

Hıçqırıb-hıçqırıb susur... nəhayət,
Boynuna sarılır gözündə şəfqət.
Sonra məzlum-məzlum üzünə baxır...
Keçir illər, aylar, günlər beləcə –
Gah dolu yağdırıb, şimşək tək çaxır,
Sözü sapa düzür gah incə-incə.

Onunla ömr edən dözümlü fildir,
Onsuz yaşamaqsa... mümkün deyildir!

HARAYÇI

Çox irad tutmuşuq bir vaxt hər şeyə,
Tənəli sözlərdən pörtmüşük bəzən.
Sözümüz ağıza düşməsin deyə
Qapı – pəncərəni örtmüşük bəzən.

Bəzən tufan qopub səssiz-səmirsiz,
Haqq işə, haqq sözə çəkməmişik qol.
Qılınclı-qalxanlı xasiyyətimiz
Bizi tutaşdırıb gündə neçə yol.

Tutulmuş göy kimi şimşək oynadıb
Tökmüşük dolutək qəzəbimizi.
Bu zaman özünü araya atıb
Tezcə barışdırıb... məhəbbət bizi.

QƏRƏNFİL

Çiçəklər içində heç bilmirəm mən
Niyə meylim düşür sənə, qərənfil!
Səni bir gözəlin aldım əlindən,
Camalın bənzəyir ona, qərənfil!

Bir zaman məskəndi sənə dağ, dərə,
Tər-təzəydin, rast gəlməmiş nəzərə.
Ah, nə deyim səni qıran əllərə,
Gələrsənmi bir də cana, qərənfil?

Bir sən, bir qızılgül, bir də bənövşə,
Könlümün həmdəmi olmuş həmişə;
Sizsiz nəyə gərək çəmən, bağ, meşə?
Verməz ətrinizi nanə, qərənfil?

"Bir qızın dodağı toxunmuş mənə,
Onunçün yanağım aldır" desənə...
Buxağından ətir keçibdir sənə,
Zərif əllərindən xına, qərənfil!

İndi dəftərimin arasındasan,
Burdasa özünü barı xoşbəxt san!
Yel atardı səni solduğun zaman
Kim bilir ki, hansı yana, qərənfil!

Mən ki, tanımıram başqa bir çiçək,
Məhəbbət timsalı olsun sənintək;
İki sınıq qəlbi birləşdirərək,
Yetir dərdlərini sona, qərənfil!

SEVGİLİM

Söz verib, gəlmədin dediyin anda,
Gözlərim yolunda qaldı, sevgilim!
Bir qərar tutmadım sənsiz heç yanda,
Qəm-qüssə üstümü aldı, sevgilim!

Tanış addım səsi verdi ilk nişan
Qəlbin arzusundan – şirin vüsaldan;
Könlüm intizardan çıxdığı zaman
Azad quştək qanad çaldı, sevgilim!

Sardı varlığımı min bir düşüncə:
Sənsiz günüm keçmiş əvvəllər necə?!
Ömrün o çağları getmişdir heçə,
Demə bir nişanə qaldı, sevgilim!

Gözlərin gözümə bir yol baxdımı,
Orda oxuyaram mən öz baxtımı,
Mənim şit sözlərim səni sıxdımı?
Hər sözümüz qeylü-qaldı, sevgilim!

Xəyalınla keçir günlərim müdam,
Lakin rastlaşanda hər səhər-axşam,
Sözlərim qəhətə çəkilir tamam,
Bilmirəm bu necə haldı, sevgilim?!

ƏN KƏDƏRLİ MUSİQİ

Səndən ayrılan günü
Elə bilmə sevindim –
Uca zirvədə ikən
Dərin dərəyə endim.
Demə, o vaxt şad olub
Hər arzuma çatmışam.
Qanadımın birini

Mən qoparıb atmışam!
Tək qanadla mən o gün
Çəkildim öz yuvama.
Önümdə yer qaraldı,
Başım üstündə səma.
Yetim kimi sığındım
Yetim qalan evimə.
Baxdım qoşa dayanan
Köhnə, təzə təqvimə.
Dedim, nə tez çovğuna
Düşdü fidan diləklər,
Ahəngini itirdi
Birgə vuran ürəklər?!
Kimsə acıq verərək
"Bəxtəvəri" çalırdı.
Ötən günü, nəşəni
Bir-bir yada salırdı.
Zaman-zaman çalındı,
O səs tutdu hər yanı.
Ayrılığın o çağı,
Ayrılığın o anı
"Bəxtəvəri" səsiylə
Ürəyimdə saldı iz.
Dayansaq da göz-gözə
Görüşmədik daha biz.
Haçan ümid qapısı
Açılacaq vüsala?
Cavab gələcəkmi, ah,
Görəsən bu suala?!
Qaval vuran, ney tutan
Səsi dəm-dəm qaldırar.
Sümüyünə düşənlər
Bir də, bir də çaldırar.
Lakin mənim qəlbimə
Dolar qüssə, dolar qəm –
Kefimin ən xoş çağı
O havanı dinləsəm.

"Bəxtəvəri" söz salır
Ayrılıqdan, sitəmdən,
Ağlamayım neyləyim
Eşidəndə onu mən.

* * *

Qızılgül, ətrini yayıb hər yana,
Hədiyyə olursan dosta, düşmana.
Gecə-gündüz həsrətinlə nalə çəkən var,
Ona dönük çıxmağından bir utansana.

ZƏHLƏM GETDİ... ÇİÇƏKLƏRDƏN

(*Zarafatyana*)

Gözəllikdən dərs deyənim,
Dayəm çiçəklər olmuşdur.
Bənövşənin, qızılgülün
Ruhum ətriylə dolmuşdur.
Torpağımın bəzəyidir
Novruzgülü, lalə, nərgiz.
Dərk etməzdim bu dünyanın
Mənasını çiçəklərsiz.
Əbədi bir elçisidir
Çiçək eşqin, məhəbbətin.
Bünövrəsi çiçək olub
Neçə-neçə səadətin.

Bu gün yenə gül-çiçəklə
Dolu məclis... toy-bayramdır.
Qarşımdakı boş kürsünü
Bir qız tutdu ağır-ağır.
Odur, odur, zinət verən
Bu məclisə, bu şəhərə.

Rast gəldikcə "halal olsun..."
Söyləmişəm neçə kərə,
Halal olsun o gözləri,
O buxağı yaradana.
Min yaşasın bu cür dünya
Gözəlini doğan ana!
Hüsnün cahan yarışında
İnanmıram çıxa tayı.
Bu şad gündə möcüzədir
Taleyimin bəlkə payı?!

Tanıyırdı... Kirpik çaldı...
Təbəssümlə baxdım qıza.
Dedim: "Ola bəy-gəlinin
Kaş, sağ əli başımıza".
Səssiz nitqi eşitdimi,
Ya duydumu – bilə-bilə
Cavab verdi bu arzuma
Hiss olunmaz təbəssümlə.

Baxışların ixtilatı
Başlanmışdı şirin-şirin.
Gözlər qəlbə od vururdu,
Su səpirdi sərin-sərin...
Üzbəsurət əyləşmişdim
Arzum ilə... qismətə bax,
Gül dəstəsi qoydu kimsə
Aramıza elə bu vaxt.

Bu boyda da buket olar?
Durdu öndə təpə kimi.
Boylanmağa təhərim yox,
Necə udum qəhərimi?
Əl də çatmır itələyim
O güldanı başqa səmtə –
Duyğusuzun qarşısında
Kol-kos kimi gedib bitə.

Qızı bir də görmək üçün
Çəkil deyim hansı gülə?
Necə açım fəryadımı
Yasəmənə, qərənfilə?..
Çiçəklərdə insaf hanı,
Mürvət hanı, ürək hanı –
Duya bilsin sevən qəlbdə
Tüğyan edən həyəcanı?

Əldən çıxan xoş təsadüf
Eşqə necə təkan idi...
Önümdəki gül dəstəsi
İndi qaratikan idi.
Hər ləçəyi, hər qönçəsi
Əfi olub çaldı məni,
Qanlı-qanlı seyr elədim
Çiçəklərin qəşəngini.

Məclis bitdi, görmədim də
O dilbəri gedəndə mən.
Sevirdim mən çiçəkləri,
Zəhləm getdi çiçəklərdən.

SƏNƏ BAXANDA

"Sənə nə olub!" demə, sənə baxanda,
İrad tutma, o şirin, mənalı anda.
İrad tutma səhrada bulaq görənə,
Yaza həsrət qalana – çiçək dərənə.

İrad tutma sən çörək istəyən aca,
İrad tutma havaya, suya möhtaca.

Şaqqıltıyla göy gülər, bulud sevinər,
Dağlar verər səs-səsə şimşək çaxanda:
Qəlbin mizrab dəyməyən telləri dinər
Gözüm qızıl telinə dönüb baxanda.

Gözlərimdə hər fəsil açar yasəmən –
Dodağını, qaşını, üzünü görcək,
Dəyişmişəm – özümü tanımıram mən.
Şirin-şirin alışan gözünü görcək –

Sönən ömür şamının yanır hər biri,
Ötən gənclik çağları qayıdır geri...

"Sənə nə olub!" demə sənə baxanda,
İrad tutma o şirin, mənalı anda.
Gözəl görmək savabdır, atalar deyib,
Gözəlliyə göz yummaq eyibdir, eyib...

GÖRƏN NƏ DEYƏR...

Durmuşam onunla yenə üz-üzə?
Məsləhət almağa gəlib yanıma.
Hüsnü əzəlidir, ədası təzə,
Yapışır göz kimi gözü canıma.

Mənə xitab edir "müəllim" deyə,
Qalmışam içimi mən yeyə-yeyə.

Qalanıb könlündə bəlkə bir ocaq,
Bəlkə qarlı saçım üşüdür onu!?
Od-su arasında durmuşam... ancaq
Kaş ki, yetişməyə bu cövrün sonu.

Deyirəm: "Heç insaf var səndə, ay qız?
Var isə o sayaq atəşli baxma.

Amandır, amandır, qəlbində, ay qız
Qırovlu başımı başıma qaxma..."

Qız sonsuz hörmətlə baxdı üzümə,
Özüm atəş açdım bu vaxt özümə.

Hissə meydan versəm, baxan nə deyər,
Onu cilovlasam qəlbim inciyər...

Demək, o gündən ki, oldun müəllim
Peşən çox duyğudan səni ayırdı,
Soyuq məsləhətlər versə də dilim,
Ürəyim gəncliyi haraylayırdı...

* * *

Gecə xeyli keçmiş, yata bilmirəm,
Sanma əyləncəmdir boş düşüncələr;
Yol tapa bilməyir könlümə dərd-qəm –
Qaçırmış yuxumu xoş düşüncələr...

Qonşuda ağlayan körpə uşağın
Gənc ana tələsik durur səsinə.
Çox acı olsa da vaxtsız oyanmaq
Şirin layla deyir öz körpəsinə.

Gecə xeyli keçmiş, yatmışdır Bakı,
Könlümdə yatmayan min arzu vardır.
Həsrətlə deyirəm: "qonşumuzdakı
Körpənin atası nə bəxtiyardır..."

* * *

Tükənməz eşq ilə duyduqca dərin
Sənin gözündəki o şəriyyəti,
Səhərlər açılan şehli güllərin
Gözümdə yox olur hər təravəti.

Saflığa müştağam əzəldən bəri,
Dərilmiş bir çiçək nəyə gərəkdir,
Yersiz görünsə də belə sözləri
Mənə də yazdıran təmiz ürəkdir.

Mənə qəlbi qara, qısqanc deyənin
Görəsən sevgidən xəbəri varmı?
Təkcə adına yox, paltarına da
O, ləkə düşməyə razı olarmı?!

RELSLƏR

Zəng çalınır... ağır-ağır tərpənir qatar,
Bir az sonra nə əl yetər, nə də ün çatar.

Nə zaman ki, könülləri ayrılıq sıxır,
Ağ dəsmallar qara gözlə görüşə çıxır.

Ürəyimdir didəmdəki sönüb alışan,
Quşu uçmuş yuva kimi halım pərişan.

Dərdlərimi ondan özgə söylərəm kimə,
Göz yaşlarım dolu kimi düşür qəlbimə.

Qatar gedir... uzaqlaşır sevinc yelkənim,
Uzaqlaşır, uzaqlaşır yaxınım mənim.

Qatar gedir... arxasınca qalır qoşa xətt,
Uzandıqca, çəkildikcə verir əziyyət.

Uzandıqca, çəkildikcə... məhşərdir, məhşər –
İki qəlbi birləşdirir axı, o tellər!

TƏSƏLLİ

Bir şəhərin suyundan sən də, mən də içirik,
Küçəsindən, bağından sən də, mən də keçirik.

Gəzə-gəzə çıxırıq sən də, mən də sahilə.
Baxışımız zillənir bir çiçəyə, bir gülə.

Qız qalası önündə sən də, mən də donuruq,
Sehirli bir aləmə sən də, mən də yanırıq.

Bəlkə elə necə yol səhər-səhər, ya axşam
Addımının yerinə addımımı qoymuşam.

Əlin dəyən budaqlar toxunubdur əlimə.
Dediyin bir söz gəlib o məqamda dilimə?

Bəlkə hamı yatanda bir xəyala getmişik.
Eyni anda biz Ayı Xəzərdə seyr etmişik.

Bəlkə... bəlkə... bəlkədən, xoş xəyaldan nə fayda?!
Aramızdan çay keçir – mən burda, sən o tayda.

Çatmaz, çatmaz, bilirəm, sənə arzumun əli,
Fəqət təskinlik olur qəlbimə bir təsəlli:

Bir şəhərin suyundan sən də, mən də içirik,
Küçəsindən, bağından sən də, mən də keçirik...

BU GÜN SƏNİ GÖRDÜM

Bu gün səni gördüm... kaş görməyəydim,
Duydum ki, nə böyük günahım olmuş.
Nahaqdan incidib qəlbinə dəydim,
O qəlb ki, bir zaman pənahım olmuş.

Bu gün səni gördüm... yenə təzə-tər,
Elə bil zərrəcə dəyişməmisən.
Baxış o baxışdır, gözlər o gözlər,
Duydum o əllərin istisini mən.

Bu gün səni gördüm... durduq yanaşı,
Sevindim – tapmışam mən öz sonamı.
Yox, o başqa gölə verir yaraşıq,
Uçuq yuvasına bir də qonarmı?!

Bu gün səni gördüm... gözüm önündə
Gəlib ötən günlər bir-bir dayandı.
Mən yada salıram, xatırla sən də
Dəniz kənarında içilən andı!

Bu gün səni gördüm... o gülüşlərin,
Küsüb barışmağın düşdü yadıma.
Yenə də gülürsən sən şirin-şirin,
Mənsə kədərliyəm, çat imdadıma.

Yox, çata bilməzsən, əlin çatarmı –
Kəsmiş aralığı dağlar, dərələr.
Daha indən belə mənası varmı –
Gecikmiş sevdaya baxanlar gülər.

Bu gün səni gördüm... dərdim yüz oldu,
Od qoydu sinəmə əzəl sözlərin.
İlk eşqin qönçəsi gör necə soldu...
Riqqətdən yaşarmış gülən gözlərin.

Bilirəm, bilirəm çox gileyin var,
Yaxşı duymamışam o zaman səni.
Qəlbən sevinərdi dostlar, tanışlar
Sənինlə mehriban görəndə məni.

O vaxt aramıza girənlər oldu,
Ayıra bilmədim düzü əyridən.
Heyif, ayrılığa qədəm qoyuldu,
Bütün günahlara bais mənəm, mən.

Gətirib qaytardın məktublarımı,
Gülümsər şəklini verdim özünə.
Apardı xəzrimi, de, gilavarmı? –
Leysan yağışları düşdü izinə.

Ayrıldıq... qəzəblə coşan dalğalar
Çağırıb bir daha sınadı bizi.


Əhdə şahid olan o təzə çinar
Yelləyib başını qınadı bizi.

Hərəmiz bir səmtə üz tutub getdik,
Arzular necə də tez oldu hədər.
Fəqət qəlbimizdə biz söhbət etdik,
Gecəni yatmadıq səhərə qədər.

Sənin bizdə qalan mürəkkəbqabın
Dəydi qələmimə, qələm ağladı.
Əmanət verdiyin dəftər-kitabın
Elə bil mənimlə küsü saxladı.
Çəkindim hər şeydən... əllərin dəyən
Bir şeyə əlimi vura bilmədim.
Gəl ötən günləri xatırla deyən
Çinarın yanında dura bilmədim

Bu gün səni gördüm... o vüqarınla,
O saf ürəyində əlimi sıxdın.
Zaman imtahandır – düz ilqarınla
Hər sorğu-sualdan sən haqlı çıxdın.

Bu gün səni gördüm... kaş görməyəydim.
Dedim tanımaram qarşıma çıxsan.
Durmusan önümdə.
Kim inanar, kim
Ah, necə yaxınsan... necə uzaqsan...



AZƏRBAYCAN

Babalardan qalma sözdür, –
əziz, mehriban
Ana deyə çağırırıq
Azərbaycanı.
Vətən quru dağ-daş deyil...
Onu hər zaman
seyr etdikcə biz görürük
canlı insanı:

Şirvan yolu – alnındakı
qırışlarıdır,
Mingəçevir – sevinc ilə
yanan gözləri.
Şah dağının silsiləsi –
sıx qaşlarıdır,
Zümzüməli Kürün suyu –
şirin sözləri.

Abşeronum – onun odlu, isti ürəyi,
Bu *torpaqdır – güvəndiyi*
var-dövlətinə.
Nifrətidir, qəzəbidir
Bakı küləyi
Gec baxana öz xalqına,
öz millətinə.

Onun sözü-söhbətidir,
dilinin duzu –

Sazlı-tarlı, xoş avazlı
Qazax, Qarabağ.
Şəfa verən loğmanıdır –
Sirab, İstisu,
Nəvazişli qucağıdır –
Kəpəz, Xaçbulaq.

Səxavətli bir insandır
qollu-qanadlı,
Bol nemətli süfrəsidir –
Ağdam, Lənkəran.
Düşməninə yumruğudur –
Laçın, Qubadlı,
Sol döşündə orden kimi
yanır Naxçıvan!

Göy göl onun çay içdiyi
mavi nəlbəki,
Təzə arxlar, kanallarsa
alın təridir.
Ağ köynəyi – Mil düzüdür;
ipəkli Şəki –
Paltarının zər baftalı
ətəkləridir.

İgidlərin şəkli düşən
şəfəqli Xəzər –
Medalyondur, ana onu
qoynunda saxlar.
Körpəsinə süd verdiyi
döşünə bənzər
Qar sinəsi qoşa-qoşa
bulaqlı dağlar.

Əsrimizin möcüzəsi
o Neft Daşları –
Su üstünə möhür salan